Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rumıniya bir həftədə üçüncü Rusiya dronunu vurduğunu açıqlayıb

indicə




Rusiya dronu

Rumıniya Hərbi Hava Qüvvələrinə məxsus F-16 qırıcısı iyulun 26-da səhər saatlarında ölkənin hava məkanında daha bir dronu vurub. Bu, son günlər vurulan üçüncü drondur. Hadisə Odessa yaxınlığındakı Sulina-Kiliya bölgəsində, Rumıniyanın ərazi suları üzərində baş verib. Bu barədə Rumıniya prezidenti **Nikuşor Dan** X sosial şəbəkəsində yazıb.

Dan onu da yazıb ki, Rumıniya Baş Prokurorluğunun araşdırması iyulun 24-də səhər vurulan dronun Rusiyanın Ukraynaya qarşı müharibəsində istifadə olunduğunu üzə çıxarıb. Onun sözlərinə görə, bu məlumatlar Rusiyaya göndəriləcək diplomatik notanın əsasını təşkil edəcək.

**"Rusiya Federasiyasının Rumıniyanın hava məkanını pozmağa davam etməsi yolverilməz və qəbuledilməzdir. Bu hava məkanı həm də NATO və Avropa İttifaqının hava məkanıdır. Belə hərəkətlər qəbuledilməzdir və müttəfiqlərimizlə birlikdə buna son dərəcə ciddi yanaşırıq"**, – deyə Rumıniya prezidenti bildirib.

Bundan əvvəl Dan iyulun 25-də səhər Sfıntu-Georqe şəhərindən 10 kilometr qərbdə ikinci dronun vurulduğunu açıqlayıb.

İyulun 26-dakı insidentdən sonra Rumıniya Xarici İşlər Nazirliyi Rusiyanın ölkədəki səfirini çağırıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur